Səs.- 2019.- 18 aprel.- S.6

www.sesqazeti.az
facebook Ses Media Holding
Səs




# "Tolerant Azərbaycan" mövzusunda konfrans keçirilib

***Dünən Bakıda "Tolerant Azərbaycan" mövzusunda konfrans keçirilib. SİA-nın verdiyi məlumata görə, Mənəvi Dəyərlərin Təbliği Fondunun təşkilatçılığı ilə keçirilən tədbir Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının fəaliyyətinə həsr edilib.***

Fondun icraçı direktoru Mehman İsmayılov konfransda çıxış edərək ölkəmizdəki dini tolerantlıqdan danışıb. Bildirib ki, Azərbaycanda bütün dinlərə mənsub insanlar birgə sülh, tolerantlıq şəraitində yaşayırlar. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein "Bakı yeparxiyasının tarixi" mövzusunda məruzə ilə çıxış edib. O, Azərbaycanda rus icmasının tarixi və fəaliyyəti barədə fikirlərini bölüşüb.

Sonra Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası İdarəsinin mətbuat katibi, protierey Konstantin Pominov "Müasir dövrdə Bakı yeparxiyası: Dinlərarası dialoq və multikulturalizmin inkişafına dəstək" mövzusunda məruzə edib.

Azərbaycan Kazakları Həmyerlilər Birliyinin atamanının müavini Vadim Suxarev "Azərbaycan Kazakları Həmyerlilər Birliyi və Bakı yeparxiyası: Mənəvi dəyərlər və əxlaq ənənələrinin qorunması və inkişafı üzrə qarşılıqlı əməkdaşlıq" mövzusunda çıxış edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin məsul əməkdaşı Anar Əlizadə Azərbaycanda tarixboyu müxtəlif xalqların nümayəndələrinin qarşılıqlı hörmət şəraitində yaşadıqlarını bildirib. Qeyd edib ki, Azərbaycan dövləti bu tolerant mühiti qoruyur. Ölkəmizdə bütün dinlərə mənsub insanların rahat yaşamaları üçün hər cür şərait yaradılıb. Bütün dünyada ksenofobiyanın, islamofobiyanın hökm sürdüyü bir dövrdə Azərbaycanda sabitlik, əmin-amanlıq var. Biz hər birimiz bu sabitliyi qorumaq üçün səy göstərməliyik.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov tədbirin əhəmiyyətindən danışıb. Bildirilib ki, tədbirdə gənclərin iştirakı xüsusilə əhəmiyyətlidir. Bu, Azərbaycandakı tolerantlıq ənənələrinin qorunub saxlanılması üçün vacib amildir. Konfrans müzakirələr əsasında davam etdirilib.